| "DÖVLƏT QEYDİYYATINA ALINMIŞDIR" | "TƏSDİQ EDİLMİŞDİR" |
| --- | --- |
| Azərbaycan Respublikasının Vergilər Nazirliyi Bakı şəhər Vergilər Departamentinin Kommersiya Hüquqi şəxslərinin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən | Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən |
| QEYDİYYAT № 1300025711 | Sərəncam № [illegible] |
| "27" dekabr 2010-cu il | "05" noyabr 2010-cu il |
| Rəis: N. Alimova N.Alimova | Sədr müavini R. Şahbazov R.Şahbazov |

# «AQRARKREDİT»

## QAPALI SƏHMDAR CƏMİYYƏTİ BANK OLMAYAN KREDİT TƏŞKİLATININ

## NİZAMNAMƏSİ
## (ÜÇÜNCÜ REDAKSİYADA)

BAKI – 2010

## 1. Ümumi müddəalar

1.1. «Aqrarkredit» Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatı (bundan sonra «Kredit Təşkilatı» adlanacaq) müstəqil hüquqi şəxs olub Azərbaycan Respublikasının Konstitusiyasına, "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının digər qanunları və normativ hüquqi aktlarına, Azərbaycan Respublikası Mərkəzi Bankının normativ xarakterli aktlarına, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə və bu nizamnaməyə uyğun olaraq fəaliyyət göstərir. Kredit Təşkilatı Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən 15.12.1992-ci il tarixdə 1№li qeydiyyat kitabına daxil edilmiş Azərbaycan Respublikası Səhmdar Kommersiya Aqrar-Sənaye Bankının hüquqi varisidir və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 14 aprel tarixli 65 s saylı Sərəncamına əsasən adı dəyişdirilərək «Aqrarkredit» Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatı kimi fəaliyyət göstərir.

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 09 oktyabr tarixli 195 s saylı Sərəncamına əsasən «Aqrar Kredit Fondu» Məhdud Məsuliyyətli Bank olmayan Kredit Təşkilatının «Aqrarkredit» Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatına qoşulması ilə əlaqədar «Aqrarkredit» Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatı yenidən təşkil edilmiş və o, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Avropa Komissiyasının birgə sərəncamında olan maliyyə vəsaiti hesabına yaradılmış «Əməkdaşlıq Fondu» bazasında təsis edilmiş «Aqrar Kredit Fondu» Məhdud Məsuliyyətli Bank olmayan Kredit Təşkilatının hüquqi varisidir.

1.3. Kredit Təşkilatı müstəqil balansa, Azərbaycan Respublikası Mərkəzi Bankında müxbir hesablara, kredit təşkilatlarında cari və digər hesablara, habelə Kredit Təşkilatının rəsmi adı yazılmış möhürə, künc ştampına, firma blankına və digər atributlara malikdir. Kredit Təşkilatı öz adından müqavilələr bağlayır, əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə edir və vəzifələr daşıyır, məhkəmələrdə iddiaçı və cavabdeh kimi çıxış edir.

1.4. Kredit Təşkilatının rəsmi adı:

1.4.1. Kredit Təşkilatının Azərbaycan dilində tam rəsmi adı: «Aqrarkredit» Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatı.

1.4.2. Kredit Təşkilatının Azərbaycan dilində qısaldılmış rəsmi adı: «Aqrarkredit» Səhmdar Kredit Təşkilatı.

1.4.3. Kredit Təşkilatının ingilis dilində tam rəsmi adı: AQRARİANCREDİT Closed Joint-Stock Society non-Bank Credit Orqanization.

1.4.4. Kredit Təşkilatının ingilis dilində qısaldılmış rəsmi adı: Aqrarcredit Joint-Stock Credit Orqanization.

1.5. Kredit Təşkilatının təşkilatı-hüquqi forması- qapalı səhmdar cəmiyyəti.

1.6. Kredit Təşkilatının dövlətə məxsus səhm zərfinin saxlayıcısı kimi Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi çıxış edir.

1.7. Kredit Təşkilatı öz öhdəliklərinə görə bütün əmlakı ilə məsuliyyət daşıyır. Kredit Təşkilatı dövlətin öhdəliklərinə, dövlət isə Kredit Təşkilatının öhdəliklərinə görə məsuliyyət daşımır.

1.8. Kredit Təşkilatının hüquqi ünvanı: AZ1006, Bakı şəhəri, Yasamal rayonu, Qədirli küçəsi, 125-dir.

1.9. Kredit Təşkilatı öz fəaliyyətini Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən verilmiş lisenziya əsasında həyata keçirir və Azərbaycan Respublikasının bank sisteminə daxildir.

## 2. Kredit Təşkilatının həyata keçirdiyi fəaliyyət növləri

2.1. Kredit Təşkilatı aşağıdakı fəaliyyət növlərini həyata keçirə bilər:

2.1.1. kreditlərin (təminatlı və təminatsız), o cümlədən istehlak kreditlərinin verilməsi;

2.1.2. kredit xidməti göstərilmiş şəxslərə hesabların açılması və aparılması, onlara hesablaşma-kassa xidmətinin göstərilməsi;

2.1.3. kredit xidməti göstərilmiş şəxslərin pul vəsaitinin, veksellərinin, ödəniş və hesablaşma sənədlərinin inkassasiya edilməsi, onların tapşırığı ilə daxili valyuta bazarında xarici valyutanın alınması və satılması;

2.1.4. beynəlxalq maliyyə təşkilatlarının, dövlətlərarası sazişlər üzrə donor dövlətlərinin və Azərbaycan Respublikası Hökumətinin aqrar sahənin, habelə kənd yerlərinin inkişaf etdirilməsi layihələrinin icrasında iştirak edilməsi, eləcə də həmin layihələr üzrə agent funksiyalarının yerinə yetirilməsi;

2.1.5. aqrar sahədə, habelə kənd yerlərində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin kreditləşdirilməsi üçün Azərbaycan Respublikası Hökumətinin, xarici hüquqi şəxslərin, habelə beynəlxalq təşkilatların investisiyalarının cəlb edilməsi;

2.1.6. borc öhdəliklərinin alqı-satqısı (faktorinq, forfeytinq);

2.1.7. lizinq;

2.1.8. veksellərin uçotu;

2.1.9. qarantiyanın verilməsi;

2.1.10. sığorta agenti xidmətinin göstərilməsi;

2.1.11. borcalanlara, o cümlədən birgə borcalan qruplarına maliyyə, texniki və idarəetmə məsələləri üzrə məsləhət xidmətinin göstərilməsi;

2.1.12. Kredit Təşkilatının Nizamnaməsi ilə müəyyənləşdirilmiş məqsədlərə cavab verən və qanunvericiliklə qadağan olunmayan digər fəaliyyət növlərinin həyata keçirilməsi.

2.2. Xüsusi icazə (lisenziya) tələb olunan fəaliyyət növləri qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq dövlət orqanlarından lisenziya alındıqdan sonra həyata keçirilir.

Girov əmanəti yalnız Mərkəzi Bankın Kredit Təşkilatına verdiyi lisenziyada bu barədə xüsusi icazə olduqda qəbul edilə bilər.

2.3. Kredit Təşkilatı öz müştəriləri ilə apardığı əməliyyatların, o cümlədən qəbul etdiyi girov əmanətinə dair məlumatın məxfiliyini "Kommersiya sirri haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq surətdə qorumalı, onun qanunsuz açıqlanmasına yol verməməlidir. Həmin məlumat müştəri ilə qarşılıqlı münasibətlərə xitam verildikdən sonra ən azı 5 il müddətində Kredit Təşkilatında saxlanmalıdır.

### 3. Kredit Təşkilatının nizamnamə kapitalı, əmlakı və fondları

3.1. Kredit Təşkilatının nizamnamə kapitalı 100 % Dövlətə məxsus olmaqla 18.535.425 (on səkkiz milyon beş yüz otuz beş min dörd yüz iyirmi beş) manata bərabər tutulan hər birinin nominal dəyəri 1(bir) manat olan 18.535.425 (on səkkiz milyon beş yüz otuz beş min dörd yüz iyirmi beş) ədəd adi səhmlərdən ibarətdir.

3.2. Nizamnamə kapitalı Kredit Təşkilatının səhmdarlar tərəfindən əldə edilmiş səhmlərinin nominal dəyərindən təşkil olunur. Kredit Təşkilatı adi və imtiyazlı səhmlər buraxa bilər. Kredit Təşkilatının nizamnamə kaptilanın ümumi həcmində imtiyazlı səhmlərin payı iyirmi beş faizdən çox ola bilməz. İmtiyazlı səhm öz sahiblərinə Kredit Təşkilatının ləğvindən sonra qalan əmlak hissəsini almaqda başqa səhmdarlara nisbətən üstünlük hüququ və bu cür səhmlərin buraxılması şərtlərində nəzərdə tutulan digər hüquqları verir. İmtiyazlı səhmlərin sahibləri Kredit Təşkilatının idarə edilməsində iştirak edə bilməzlər.

3.3. Kredit Təşkilatının Səhmdarlarının Ümumi Yığıncağının qərarına əsasən Kredit Təşkilatı səhmlərin nominal dəyərini artırmaq və ya əlavə səhmlər buraxmaq yolu ilə nizamnamə kapitalını artıra bilər. Kredit Təşkilatının səhmlərinin nominal dəyərinin artırılması və əlavə səhmlərin buraxılması qaydaları qiymətli kağızlar bazarını tənzimləyən müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

3.4. Kredit Təşkilatının nizamnaməsində sadə (adi) və ya digər səsli səhmlərə sahib olan səhmdarların Kredit Təşkilatı tərəfindən əlavə buraxılan səhmləri satın almaqda üstünlük hüququ müəyyənləşdirilə bilər.

3.5. Səhmdarların Ümumi Yığıncağının qərarına əsasən Kredit Təşkilatı səhmlərin nominal dəyərini azaltmaq yolu ilə və ya səhmlərin bir hisssəsini satın alıb onların uyğun miqdarını azaltmaq yolu ilə nizamnamə kapitalını azalda bilər.

3.6. Kredit Təşkilatının nizamnamə kapitalının azaldılması haqqında Səhmdarların Ümumi Yığıncağının qərarı qəbul edildiyi gündən on beş təqvim günü müddətində Kredit Təşkilatı kreditorlara bu barədə yazılı surətdə məlumat verməlidir. Kredit Təşkilatının kreditorları məlumatı aldıqdan sonra otuz təqvim günü ərzində Kredit Təşkilatının müvafiq öhdəliklərinin vaxtından əvvəl icrasını və ya onlara xitam verilməsini və çəkdikləri zərərin ödənilməsini tələb edə bilərlər.

3.7. Səhmlərin bir hissəsinin satın alınması və ödənilməsi yolu ilə Kredit Təşkilatının nizamnamə kapitaılının azaldılmasına bu şərtlə yol verilir ki, belə imkan Kredit Təşkilatının nizamnaməsində nəzərdə tutulmuş olsun.

3.8. Kredit Təşkilatı tərəfndən nizamnamə kapitalının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş minimum miqdardan aşağı endirilməsi Kredit Təşkilatının ləğvinə səbəb olur.

3.9. Kredit Təşkilatının təsisçiləri Kredit Təşkilatı qeydə alınanadək nizamnamə kapitalını tamamilə ödəməyə borcludurlar. Kredit Təşkilatı təsis edilərkən onun bütün səhmləri təsisçilər arasında bölünməlidir.

3.10. Əgər ikinci və hər növbəti maliyyə ili başa çatarkən Kredit Təşkilatının xalis aktivlərinin dəyəri nizamnamə kapitalından az olarsa, Kredit Təşkilatı öz nizamnamə kaptialının azalmasını elan etməyə və müəyyənləşdirilmiş qaydada qeydə aldırmağa borcludur. Əgər Kredit Təşkilatının göstərilən aktivlərinin

dəyəri nizamnamə kapitalının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş minimum miqdarından az olarsa, Kredit Təşkilatı ləğv edilməlidir.

3.11. Kredit Təşkilatının nizamnamə kapitalı Kredit Təşkilatının kreditorlarının mənafelərinə təminat verən əmlakın minimum miqdarını müəyyənləşdirir. O, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş miqdardan az ola bilməz.

3.12. Kredit Təşkilatının nizamnamə kaptialının miqdarı Səhmdarların Ümumi Yığıncağının qərarı ilə dəyişdirilə bilər. Nizamnamə kapitalının dəyişdirilməsi, məbləği, üsulu və səbəbi haqqında qərar müvafiq normativ hüquqi aktlara uyğun olaraq həyata keçirilir.

3.13. Kredit Təşkilatının sərəncamında qalan mənfəətdən qanunvericiliyə uyğun olaraq istifadə edilir.

## 4. Kredit Təşkilatının mənfəəti və dividendləri

4.1. Kredit Təşkilatının xalis mənfəəti vergilər və digər məcburi ödənişlər ödənildikdən sonra yaranır və qanunvericiliklə və Kredit Təşkilatının nizamnaməsi ilə müəyyən edilən məqsədlərə yönəldilə bilər. Xalis mənfəətin Kredit Təşkilatının maliyyə ili üzrə bölüşdürülməsi Kredit Təşkilatının Səhmdarlarının Ümumi Yığıncağının qərarı ilə qəbul edilir.

4.2. Adi və imtiyazlı səhm üzrə dividendlər və onların ödənilməsi qaydası haqqında qərar Kredit Təşkilatının Səhmdarlarının Ümumi Yığıncağı tərəfindən qəbul edilir.

4.3. Əgər Kredit Təşkilatının xalis aktivlərinin dəyəri onun nizamnamə kapitalının miqdarından azdırsa və ya dividendlərin ödənilməsi nəticəsində azalacaqsa, Kredit Təşkilatı dividendləri elan edə və ödəyə bilməz.

## 5. Kredit Təşkilatının hüquqları

5.1. Qanunvericiliklə müəyyən edilmiş qaydalara əsasən Kredit Təşkilatı nizamnaməsi ilə müəyyənləşdirilmiş məqsəd və vəzifələri həyata keçirərkən aşağıdakı hüquqlara malikdir:

5.1.1. Öz adından müqavilələr, kontraktlar və başqa hüquqi xarakterli sazişlər bağlamaq, əmlak və qeyri-əmlak hüquqları əldə etmək, məhkəmə orqanlarında iddiaçı və cavabdeh kimi çıxış etmək;

5.1.2. Əmlak almaq, daşınar və daşınmaz əmlakı icarəyə vermək və götürmək, girov qoymaq, satmaq və digər üsulla özgəninkiləşdirmək və onlar barəsində sərəncam vermək;

5.1.3. Təşkilatın məqsəd və fəaliyyət predmetinə uyğun olaraq öz əmlakına və pul vəsaitinə sahib olmaq, istifadə etmək və sərəncam vermək;

5.1.4. Azərbaycan Respublikasında filial və nümayəndəliklərini yaratmaq, tabeliyində olan hüquqi şəxs statuslu qurumlar təsis etmək;

5.1.5. Azərbaycan Respublikasında və xarici ölkələrdə müəssisələrin, o cümlədən müştərək müəssisələrin təsis edilməsində iştirak etmək;

5.1.6. Fəaliyyət predmetinə müvafiq olaraq kommersiya əsasında göstərilən xidmətlərin qiymətlərini müəyyən etmək;

5.1.7. Təşkilatın fəaliyyət predmetinə müvafiq olaraq xarici iqtisadi əlaqələr qurmaq;

5.1.8. Qanunvericiliklə nəzərdə tutulmuş qaydada və Azərbaycan Respublikasının Mərkəzi Bankının müvafiq lisenziyası əsasında Azərbaycan Respublikasında manatla və xarici valyuta ilə hesablaşmalar aparmaq;

5.1.9. Azərbaycan Respublikasında və xaricdə fəaliyyət göstərən təşkilatlardan zəruri hallarda dövlət zəmanəti olmadan manat və xarici valyuta şəklində borc və kreditlər almaq;

5.1.10. Öz sərbəst maliyyə vəsaitlərini bank depozitlərində yerləşdirmək;

5.1.11. Qanunvericiliklə nəzərdə tutulmuş qaydada dövlət qiymətli kağızlarını əldə etmək;

5.1.12. Hər hansı müəssisələr birliyinin, assosiasiyanın və beynəlxalq təşkilatın üzvü olmaq;

5.1.13. Qüvvədə olan qanunvericiliyə müvafiq olaraq hüquqi şəxslərə aid olan digər hüquqlardan istifadə etmək.

## 6. Səhmdarların hüquq və vəzifələri

6.1. Kredit Təşkilatının adi səhminin sahibi olan səhmdarının qanunvericiliklə müəyyən edilmiş qaydada aşağıdakı hüquqları vardır:

6.1.1. Kredit Təşkilatının idarə edilməsində Azərbaycan Respublikasının Mülki Məcəlləsi, digər qanunvericiliklə və Kredit Təşkilatının nizamnaməsi ilə müəyyən edilmiş qaydada iştirak etmək, onun idarəetmə və icra orqanlarına seçmək və seçilmək;

6.1.2. Qanunvericiliklə müəyyən edilmiş qaydada Kredit Təşkilatının fəaliyyətinə dair məlumatlar almaq, ildə bir dəfə onun illik hesabatı və mühasibat balansı ilə tanış olmaq;

6.1.3. Kredit Təşkilatının Səhmdarlarının Ümumi Yığıncağının çağırılmasını tələb etmək;

6.1.4. Kredit Təşkilatının Səhmdarlarının Ümumi Yığıncağnın gündəliyində dəyişikliklərin edilməsini tələb etmək;

6.1.5. Kredit Təşkilatının Səhmdarlarının Ümumi yığıncağında səsvermə hüququ ilə iştirak etmək və onun protokolunun surətini tələb etmək;

6.1.6. Kredit Təşkilatının fəaliyyətinin Təftiş Komissiyası və ya auditor tərəfindən yoxlanılmasını tələb etmək;

6.1.7. Kredit Təşkilatının xalis mənfəətindən dividend almaq;

6.1.8. Kredit Təşkilatının fəaliyyətinə xitam verildikdə, Kredit Təşkilatının kreditorlarının tələbləri yerinə yetirildikdə, hesablanmış, lakin ödənilməmiş dividendlər, habelə imtiyazlı səhmlərin ləğvetmə dəyəri ödənildikdən sonra Kredit Təşkilatının yerdə qalan əmlakının müəyyən hissəsini almaq;

6.1.9. Azərbaycan Respublikasının Mülki Məcəlləsində və Kredit Təşkilatının nizamnaməsində nəzərdə tutulmuş digər hüquqlara malik olmaq.

6.2. Kredit Təşkilatının imtiyazlı səhminin (hər bir növ üzrə) sahibi olan səhmdarının hüquqları Azərbaycan Respublikasının Mülki Məcəlləsi və Kredit Təşkilatının nizamnaməsi ilə müəyyən edilir.

6.3. Aşağıdakı məsələlər üzrə qərarların qəbul edilməsində imtiyazlı səhm sahibi səs hüququ əldə edir:

6.3.1. Kredit Təşkilatının yenidən təşkil edilməsi;

6.3.2. Kredit Təşkilatının ləğv edilməsi;
6.3.3. Səhmdara məxsus olan imtiyazlı səhm növü üzrə hüquqlarını məhdudlaşdıran dəyişiklik və əlavələrin nizamnamədə edilməsi.
6.4. Kredit Təşkilatının səhmdarının vəzifələri aşağıdakılardır:
6.4.1. Qanuna və (və ya) nizamnaməyə əsasən kommersiya sirri və ya məxfi hesab olunan məlumatları üçüncü şəxslərə açıqlamamaq;
6.4.2. Səhmdarların reyesterində ona dair daxil edilmiş məlumatların dəyişilməsi barədə reyestrsaxlayıcısına on təqvim günü ərzində yazılı bildiriş vermək;
6.4.3. Qanunvericiliklə müəyyən edilmiş başqa vəzifələri yerinə yetirmək.

## 7. Səhmdarların Ümumi Yığıncağı

7.1. Kredit Təşkilatının ali idarəetmə orqanı onun Səhmdarlarının Ümumi Yığıncağıdır.
7.2. Səhmdarların Ümumi Yığıncağının müstəsna səlahiyyətinə aşağıdakılar aiddir:
7.2.1 . Kredit Təşkilatının Nizamnaməsini təsdiq etmək, nizamnamə kapitalının miqdarını müəyyən etmək;
7.2.2. Kredit Təşkilatının Müşahidə Şurasının və Təftiş Komissiyasının üzvlərini seçmək və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;
7.2.3. Kredit Təşkilatının icra orqanlarını yaratmaq və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;
7.2.4. Kredit Təşkilatının illik hesabatlarını, mühasibat balanslarını, mənfəət və zərər hesabatlarını təsdiq etmək, mənfəətini və zərərini bölüşdürmək;
7.2.5. Kredit Təşkilatının xalis aktivlərinin dəyərinin iyirmi beş faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) bağlanmasına razılıq vermək;
7.2.6. Kredit Təşkilatının reqlamentini qəbul etmək və reqlamentə əlavə və dəyişikliklər etmək;
7.2.7. Kredit Təşkilatının faiz dərəcələri, aktivlərin yerləşdirilməsi və kateqoriyaları barədə siyasətini, habelə onun ümumi maliyyə, uçot, inzibati və kadr siyasətini müəyyən etmək;
7.2.8. Növbəti və tələb olunduğu hallarda növbədənkənar auditin keçirilməsi barədə qərar qəbul etmək və bu məqsədlə kənar auditoru təyin etmək;
7.2.9. Kredit Təşkilatının büdcəsini qəbul və təsdiq etmək;
7.2.10. Kredit Təşkilatının inzibatçılarının işə götürülməsi müddətlərini və şərtlərini müəyyən etmək;
7.2.11. Müşahidə Şurası üzvlərinin səlahiyyətləri istisna olmaqla, Kredit Təşkilatının inzibatçılarının Kredit Təşkilatı adından və Kredit Təşkilatı hesabına öhdəliklər qəbul etmək səlahiyyətlərinin və həmin səlahiyyətlərin Kredit Təşkilatının digər əməkdaşlarına verilməsi hüququnun hədlərini müəyyən etmək;
7.2.12.Kredit Təşkilatı inzibatçılarının kommersiya maraqlarının açıqlaması haqqında qaydaları və həmin qaydalara dəyişiklik və əlavələri qəbul etmək;
7.2.13.Kredit Təşkilatının səhmlərinin buraxılması müddətlərini və şərtlərini müəyyən etmək, habelə mühüm iştirak payının əldə edilməsinə razılıq vermək;
7.2.14. Kredit Təşkilatının kənar auditor tərəfindən təsdiqlənmiş və Təftiş Komissiyası tərəfindən tövsiyə edilmiş illik maliyyə hesabatlarını təsdiq etmək, habelə xalis mənfəət hesabına ehtiyatların yaradılması və dividendlərin ödənilməsi barədə qərar qəbul etmək;

7.2.15. Kredit Təşkilatının İdarə Heyəti və Təftiş Komissiyası haqqında Əsasnamələri təsdiq etmək;

7.2.16. Kredit Təşkilatının nümayəndəlik və filiallarını yaratmaq və ya ləğv etmək, tabeliyində olan hüquqi şəxs statuslu qurumlar yaratmaq, yenidən təşkil və ya ləğv etmək;

7.2.17. Kredit Təşkilatının yenidən təşkili və ya ləğvi haqqında qərar qəbul etmək;

7.2.18. Kredit Təşkilatının Müşahidə Şurası, filial və nümayəndəlikləri haqqında Əsasnamələri təsdiq etmək.

7.3. Bu maddənin 7.2.2-7.2.15-ci bəndlərində qeyd edilmiş məsələlərin həll edilməsində dövlətin adından iştirak etmək hüququ Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə, 7.2.1-ci və 7.2.16-7.2.18-ci bəndlərində qeyd edilmiş məsələlərin həll edilməsində isə dövlətin adından iştirak etmək hüququ Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə məxsusdur.

7.4. Azərbaycan Respublikasının Mülki Məcəlləsinə əsasən Səhmdarların Ümumi Yığıncağının müstəsna səlahiyyətinə aid edilmiş məsələlər həll edilmək üçün onun tərəfindən Kredit Təşkilatının icra orqanlarına verilə bilməz.

7.5. Ümumi Yığıncaq növbəti və növbədənkənar ola bilər.

7.6. Növbəti Ümumi Yığıncaq ildə bir dəfədən az olmayaraq çağırılmalıdır (İllik Ümumi Yığıncaq).

7.7. İllik Ümumi Yığıncaq maliyyə ili bitdikdən sonra altı aydan gec olmayaraq, Müşahidə Şurası tərəfindən çağırılır və bu barədə səhmdarlara məlumat verilir.

7.8. Ümumi Yığıncağın çağırılmasına qırx beş gün qalmış yığıncağın çağırılması barədə səhmdarlara yazılı bildiriş göndərilməlidir.

7.9. Ümumi Yığıncağın çağırılması barədə bildirişdə aşağıdakılar göstərilməlidir:

7.9.1. Kredit Təşkilatının adı və olduğu yer;

7.9.2. Ümumi Yığıncağın keçirilmə tarixi, vaxtı və ünvanı;

7.9.3. Ümumi Yığıncağın gündəliyi;

7.9.4. Ümumi Yığıncağın gündəliyi üzrə materiallarla tanış olunma qaydası.

7.10. Növbədənkənar Ümumi Yığıncaq Müşahidə Şurasının öz təşəbbüsü ilə və ya Təftiş Komissiyasının, yaxud səsli səhmlərin 10 (on) faizinə malik olan səhmdarların yazılı tələbi ilə Kredit Təşkilatının İdarə Heyəti tərəfindən çağırılır.

7.11. Növbədənkənar Ümumi Yığıncağın çağırılması tələbində gündəliyə təklif olunan məsələlər göstərilməlidir. Həmin məsələlər Ümumi Yığıncağın gündəliyinə mütləq salınmalıdır.

7.12. Ümumi Yığıncaqda səsli səhmlərin 60 (altmış) faizinin sahibləri iştirak etdikdə Ümumi Yığıncaq səlahiyyətlidir.

7.13. Ümumi Yığıncaqda yetərsay olmadıqda Ümumi Yığıncağın yenidən çağırılması qaydası Azərbaycan Respublikasının Mülki Məcəlləsinin müvafiq maddəsinə uyğun həyata keçirilir.

7.14. Səhmdar Ümumi Yığıncaqda iştirak hüququnu bilavasitə özü və ya nümayəndəsi vasitəsilə həyata keçirir. Bu zaman səhmdarın nümayəndəsi qanunvericiliklə müəyyən edilmiş qaydada tərtib edilmiş etibarnaməyə malik olmalıdır.

7.15. Ümumi Yığıncaqda səsvermə «bir səsli səhm-bir səsdir» prinsipi əsasında həyata keçirilir.

7.16. Ümumi Yığıncağın gündəliyinə daxil edilməmiş məsələlər üzrə qərar qəbul edilə bilməz.

7.17. Ümumi Yığıncağın protokolu yığıncaq bitdikdən sonra üç iş günündən gec olmayaraq Azərbaycan Respublikası Mülki Məcəlləsinin tələblərinə uyğun qaydada iki nüsxədə tərtib olunur, sədrlik edən şəxs və katib tərəfindən imzalanır və möhürlənir.

## 8. Müşahidə Şurası

8.1. Müşahidə Şurası Kredit Təşkilatına ümumi rəhbərliyi və Kredit Təşkilatının fəaliyyəti üzərində nəzarəti həyata keçirən orqandır.

8.2. Müşahidə Şurasınn səlahiyyətləri aşağıdakılardan ibarətdir:

8.2.1. Kredit Təşkilatının Səhmdarlarının Ümumi Yığıncağı və İdarə Heyəti üçün tövsiyələr vermək;

8.2.2. Müəyyən hədlərdən artıq məbləğdə təminatsız (blank) kredit vermək haqqında qərar qəbul etmək;

8.2.3. Kredit Təşkilatının, onun filial və nümayəndəliklərinin inzibatçılarının və əməkdaşlarının mükafatlandırılması sistemini müəyyənləşdirmək;

8.2.4. Kredit Təşkilatının fəaliyyəti ilə bağlı İdarə Heyəti tərəfindən hazırlanmış və müzakirə edilmiş daxili qaydaları təsdiq etmək;

8.2.5 Müəyyən məbləğ həddində kreditlərin verilməsi üçün Kredit Təşkilatının İdarə Heyətinə səlahiyyət vermək.

8.3. Kredit Təşkilatının Müşahidə Şurası 3 (üç) nəfərdən az olmamaqla, tək sayda üzvlərdən ibarətdir. Müşahidə Şurasının üzvləri Səhmdarların Ümumi Yığıncağı tərəfindən səhmdarlardan və (və ya) kənar şəxslərdən 3 (üç) il müddətinə seçilirlər. Müşahidə Şurasının üzvləri növbəti müddətlərə yenidən seçilə bilərlər. Səhmdarların Ümumi Yığıncağı Müşahidə Şurasının üzvləri arasından Müşahidə Şurasının Sədrini seçir. Muşahidə Şurasının Sədri Şuraya rəhbərlik edir.

8.4. Kredit Təşkilatının Müşahidə Şurasının və ya onun üzvünün səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi Səhmdarların Ümumi Yığıncağının qərarı ilə həyata keçirilə bilər.

8.5. Səhmdarların Ümumi Yığıncağı Müşahidə Şurasının üzvləri üçün muzd müəyyən edə bilər. Həmin muzd Kredit Təşkilatının bölüşdürülməmiş mənfəətinin faizi şəklində və ya əmək haqqı formasında təyin edilə bilər.

8.6. Kredit Təşkilatının Müşahidə Şurasının Sədri Şuranın iclaslarını üç ayda bir dəfədən az olmayaraq çağırır və iclaslara sədirlik edir.

8.7. Kredit Təşkilatnın Təftiş Komissiyasının, İdarə Heyətinin, Şura üzvlərinin tələbi ilə də Müşahidə Şurasının iclası Şuranın Sədri tərəfindən çağırılır.

8.8. Müşahidə Şurasının üzvlərinin sayı üçdən artıq olduqda onların 60 (altmış) faizinin iştirakı ilə keçirilmiş iclas səlahiyyətli sayılır.

8.9. Kredit Təşkilatının Təftiş Komissiyasının və İdarə Heyətinin üzvləri, habelə istənilən əməkdaşları Müşahidə Şurasının iclaslarına dəvət oluna bilərlər.

8.10. Kredit Təşkilatının Müşahidə Şurasının iclasında hər üzv bir səsə malik olmaqla, qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Üzvlərin səsvermə zamanı bitərəf qalmasına icazə verilmir. Səslərin sayı bərabər bölünərsə, Şuranın Sədrinin səsi qərarın qəbul edilməsi və ya rədd edilməsi üçün həlledici hesab edilir.

8.11. Müşahidə Şurasının iclası çağırıldıqda, iclasın yerini, vaxtını, iştirakçılarını, gündəliyini, çıxışların xülasəsini, səsvermənin nəticələri və qərarlarını əks etdirən protokol tərtib edilir. Həmin protokol Şuranın Sədri tərəfindən imzalanır.

## 9. İdarə Heyəti

9.1. İdarə Heyəti Kredit Təşkilatının fəaliyyətinə cari rəhbərliyi həyata keçirən orqandır. O, Kredit Təşkilatının Müşahidə Şurasına və Səhmdarların Ümumi Yığıncağına hesabat verir.

9.2. İdarə Heyətinin səlahiyyətləri aşağıdakılardan ibarətdir:

9.2.1. Kredit Təşkilatının strukturunu və ştat cədvəlini təsdiq etmək;

9.2.2. Kredit Təşkilatının Mərkəzi aparatının struktur bölmələrinin Əsasnaməsini təsdiq etmək;

9.2.3. Kredit Təşkilatının Mərkəzi aparatının struktur bölmələrinin, filial və nümayəndəliklərinin rəhbərlərini işə qəbul etmək və işdən azad etmək.

9.3. Bu maddədə qeyd edilən məsələlərdən əlavə Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə və Kredit Təşkilatının Nizamnaməsi ilə Kredit Təşkilatının digər idarəetmə orqanlarının müstəsna səlahiyyətinə aid edilməmiş bütün məsələlərin həlli də Kredit Təşkilatının İdarə Heyətinin səlahiyyətinə aiddir.

9.4. Kredit Təşkilatının İdarə Heyəti 3 (üç) nəfərdən az olmamaqla, tək sayda üzvlərdən ibarətdir. İdarə Heyətinin üzvləri Səhmdarların Ümumi Yığıncağı tərəfindən 4 (dörd) ildən çox olmayan müddətə seçilirlər. İdarə Heyətinin üzvləri növbəti müddətlərə yenidən seçilə bilərlər. Səhmdarların Ümumi Yığıncağı İdarə Heyətinin üzvlərindən birini İdarə Heyətinin Sədri təyin edir. İdarə Heyətinin Sədri Kredit Təşkilatının adından vəkalətnaməsiz fəaliyyət göstərir, dövlət və digər müvafiq orqanlarda onu təmsil edir. İdarə Heyətinin Sədri Kredit Təşkilatının ştatını formalaşdırır, kredit təşkilatlarında hesablar açır, icrası məcburi olan əmr və göstərişlər verir, daxili nizam-intizam qaydalarını müəyyən edir.

9.5. Kredit Təşkilatının İdarə Heyətinə Müşahidə Şurasının üzvləri seçilə bilməz.

9.6. Kredit Təşkilatının İdarə Heyəti və İdarə Heyətinin Sədri öz səlahiyyətlərini mövcud qanunvericiliyə, bu Nizamnaməyə və İdarə Heyəti haqqında Əsasnaməyə uyğun olaraq həyata keçirir.

9.7. Kredit Təşkilatının İdarə Heyəti üzvlərinin eyni zamanda digər təşkilatda vəzifə tutmasına, qanunvericiliyə zidd olmadıqda, Kredit Təşkilatının Səhmdarlarının Ümumi Yığıncağının və ya Müşahidə Şurasının razılığı ilə yol verilir.

9.8. İdarə Heyətinin iclası onun üzvlərinin 60 (altmış) faizi iştirak etdikdə səlahiyyətli sayılır.

9.9. İdarə Heyətinin qərarları iclasda iştirak edən üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Hər bir üzv bir səs hüququna malikdir. Səslər bərabər olduqda İdarə Heyəti Sədrinin səsi həlledici sayılır.

## 10. Təftiş Komissiyası

10.1. Təftiş Komissiyası Kredit Təşkilatının maliyyə-təsərrüfat fəaliyyətinə nəzarəti həyata keçirən orqandır.

10.2. Təftiş Komissiyası Kredit Təşkilatının maliyyə-təsərrüfat fəaliyyətini yoxlayır, illik hesabatlar və balanslar əsasında rəy tərtib edir.Təftiş Komissiyasının rəyi olmadan Səhmdarların Ümumi Yığıncağı illik balansı təsdiq edə bilməz.

10.3. Kredit Təşkilatının Təftiş Komissiyası 3 (üç) nəfərdən az olmamaqla, tək sayda üzvlərdən ibarətdir. Təftiş Komissiyasının üzvləri Səhmdarların Ümumi Yığıncağı tərəfindən 3 (üç) il müddətinə seçilirlər. Təftiş Komissiyasının üzvləri növbəti müddətlərə yenidən seçilə bilərlər. Səhmdarların Ümumi Yığıncağı Təftiş Komissiyasının üzvləri sırasından Təftiş Komissiyasının Sədrini seçir.

10.4. Təftiş Komissiyasının üzvü Kredit Təşkilatının səhmdarı, Müşahidə Şurasının və Kredit Təşkilatının İdarə Heyətinin üzvü ola bilməz.

10.5. Təftiş Komissiyasının üzvlərindən biri üzvlük statusunu səbəbindən asılı olmayaraq itirdiyi halda, 10.3. bəndə uyğun olaraq yenidən seçilən üzv əvvəlki üzvün seçildiyi müddətə fəaliyyət göstərir.

10.6. Səhmdarların Ümumi Yığıncağı Təftiş Komissiyasının üzvləri üçün muzd müəyyən edə bilər.

10.7. Təftiş Komissiyası Kredit Təşkilatının maliyyə-təsərrüfat fəaliyyətinin təftişini aşağıdakı hallarda həyata keçirir:

10.7.1. Təftiş Komissiyasının təşəbbüsü ilə Kredit Təşkilatının Səhmdarlarının Ümumi Yığıncağının və ya Müşahidə Şurasının qərarı ilə;

10.7.2. Kredit Təşkilatının səsli səhmlərinin on faizindən artıq hissəsinə malik olan səhmdarların və Kredit Təşkilatının İdarə Heyətinin tələbi ilə;

10.7.3. Təsərrüfat ili başa çatdıqda;

10.7.4. Kredit Təşkilatının Nizamnaməsində nəzərdə tutulan digər hallarda.

10.8. Kredit Təşkilatının Təftiş Komissiyasının tələbi ilə Kredit Təşkilatının bütün orqanları və vəzifəli şəxsləri Kredit Təşkilatının maliyyə-təsərrüfat fəaliyyəti ilə əlaqədar olan sənədləri təqdim etməlidirlər.

10.9. Təftiş Komissiyasının iclasları ildə bir dəfədən az olmayaraq keçirilir.

10.10. İclasda yalnız gündəliyə daxil edilmiş məsələlər müzakirə olunur. İclasın gündəliyinə səhmdarlar, Təftiş Komisiyyasının, Müşahidə Şurasının və İdarə Heyətinin üzvləri tərəfindən təklif edilən məsələlər daxil edilir.

10.11. Kredit Təşkilatının Müşahidə Şurasının və İdarə Heyətinin üzvləri, habelə istənilən əməkdaşları Təftiş Komissiyasının iclasına dəvət oluna bilərlər.

10.12. Təftiş Komissiyasının iclasları üzvlərinin yarısından çoxu iştirak etdikdə səlahiyyətli sayılır.

10.13. Təftiş Komissiyasının qərarları iclasda iştirak edən üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Hər bir üzv bir səs huququna malikdir. Üzvlərin səsvermə zamanı bitərəf qalmasına icazə verilmir. Səslər bərabər olduqda iclasa sədrlik edən Sədrin səsi həlledici sayılır.

10.14. Təftiş Komissiyasının iclaslarında qəbul edilmiş qərarlar qanunvericiliyə uyğun olaraq tərtib olunur.

## 11. Kredit Təşkilatında mühasibat uçotu və hesabatlar

11.1. Kredit Təşkilatının maliyyə ili onun dövlət qeydiyyatına alındığı tarixdən başlanır və həmin ilin dekabr ayının 31-də başa çatır. Növbəti maliyyə illəri yanvar ayının 1-də başlanır və həmin ilin dekabr ayının 31-də başa çatır.

11.2. Kredit Təşkilatında mühasibat uçotu Azərbaycan Respublikasında tətbiq edilən mühasibat uçotunun standartlarına uyğun aparılır. Azərbaycan Respublikasının mühasibat standartları ilə yanaşı Kredit Təşkilatında mühasibatçılıq beynəlxalq mühasibat uçotunun standartları ilə də aparılır.

11.3. Kredit Təşkilatında balans, mənfəət və zərərin hesablanması, habelə hesabata aid olan digər maliyyə sənədləri mövcud qanunvericiliyə uyğun olaraq tərtib edilir.

11.4. Kredit Təşkilatının mühasibat balansı və hesabatları müstəqil auditor tərəfindən hər il yoxlanılıb təsdiq edilməlidir.

11.5. Kredit Təşkilatı maliyyə ili qurtardıqdan sonra ən geci 5 ay müddətində kənar auditor tərəfindən təsdiqlənmiş illik maliyyə hesabatını Mərkəzi Banka təqdim etməli və onu kütləvi informasiya vasitələrində dərc etdirməlidir

11.6. Kredit Təşkilatının uçot və hesabat sənədləri, səhmdarların və ya onların nümayəndəlrinin siyahısı, idarəetmə orqanlarının siyahısı Kredit Təşkilatının hüquqi ünvanında saxlanılır. Belə sənədlər, qeydlər və təsdiqləyici sənədlər hər bir uyğun vaxtda səhmdarlar və onların nümayəndələri tərəfindən təftiş üçün hazır olmalıdır.

## 12. Kredit Təşkilatının işçiləri

12.1. Kredit Təşkilatının işçiləri müdiriyyətlə bağlanmış əmək müqaviləsinə (kontrakta) əsasən işə qəbul olunurlar.

12.2. Kredit Təşkilatının işçilərinin hüquq və vəzifələri quvvədə olan əmək qanunvericiliyi və müvafiq qaydada təsdiq edilmiş Əsasnamə ilə müəyyən edilir.

## 13. Kredit Təşkilatının yenidən təşkili və ya ləğvi

13.1. Kredit Təşkilatı Azərbaycan Respublikasının qanunvericiliyi ilə tələb olunduqda və ya Səhmdarların Ümumi Yığıncağının qərarına əsasən yenidən təşkil və (və ya) ləğv olunur.

13.2. Yenidən təşkil olunma və ləğv edilmə proseduru Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən keçirilməlidir.

13.3. Kredit Təşkilatının bütün vergilərin və digər məcburi ödənişlərin ödənilməsindən və kreditorlarla hesablaşmaların aparılmasından sonra qalan aktivləri səhmdarlar arasında onların Kredit Təşkilatının nizamnamə kapitalında olan səhmlərinin nisbətinə uyğun bölünür.

## 14. Digər müddəalar

14.1. Kredit Təşkilatının fəaliyyəti ilə əlaqədar olan, bu nizamnamə ilə tənzimlənməyən məsələlər Səhmdarların Ümumi Yığıncağının qəbul etdiyi qərarla və Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir.

14.2. Bu nizamnaməyə əlavə və dəyişikliklərin edilməsi dövlət reyestrində qeydiyyata alındıqdan sonra qüvvəyə minir.

06-12-2018 20__________ il 33 saylı forma

Mən, Bakı şəhəri 1 saylı notariat kontorunun xüsusi notariusu Sabitov F.M. bu surətin sənədin əsli ilə düzgünlüyünü təsdiq edirəm.
Surəti onun əsli ilə tutuşdurarkən sonuncuda pozulmuş, əlavə yazılmış, üstündən qələm çəkilmiş sözlər və digər şərtləndirilməmiş düzəlişlər aşkar edilməyib.

Reyestrdə 1S - 16/17282 № ilə qeyd edilib.

11,00 manat haqq tutulub.

Notarius: ________________ M.Y.
(imza)

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi • NOTARİUS SABİTOV FAMİL MİRSADIQ oğlu • Şəhadətnamə № 025 • Bakı şəhəri